**UOT 76**

***Aytac Xıdırova***
***Azərbaycan Dövlət Mədəniyyət***
***və İncəsənət Universiteti***
***Az-1065, Bakı, İnşaatçılar pr. 9.***
***E-mail:* aytac092@hotmail.com**

# AZƏRBAYCANDA İSLAM HƏMRƏYLİYİ OYUNLARI

**Xülasə:** 2017-ci ilin 12-22 may tarixləri arasında Azərbaycan çox mühüm bir idman tədbirinə ev sahibliyi etdi. Bu idman tədbiri Azərbaycanın inkişafı və dünyada tanınması üçün çox vacib və məsuliyyətli idi. Bu ölkəmiz üçün möhtəşəm bir tarixi hadisə oldu. Bakıda keçirilən idman tədbiri ilin ən mühüm idman müsabiqələrindən biri olmaqla yanaşı, eyni zamanda IV İslam Həmrəyliyi Oyunlarına konsepsiyası və əhatə dairəsinə görə bərabər çox az sayda oyun vardır.

**Açar sözlər:** Bakı 2017, İslam Həmrəyliyi Oyunları, tədbir, beynəlxalq oyunlar, idman

İslam Həmrəyliyi Oyunları və digər beynəlxalq tədbirlərin Azərbaycan Respublikası ərazisində keçirilməsi vacib amillərdən hesab edilir. 2012-ci ilin oktyabr ayında İslam Həmrəyliyi İdman Federasiyasının (İHİF) Səudiyyə Ərəbistanın Ciddə şəhərində keçirilən 18-ci iclası zamanı Azərbaycan Milli Olimpiya Komitəsi İslam Həmrəyliyi Oyunlarının keçirilməsi üçün öz namizədliyini irəli sürmüşdü. 2013-cü ildə İslam Həmrəyliyi İdman Federasiyasının (İHİF) Ciddə şəhərində keçirilən 8-ci Hesabat-seçki Baş Assambleyasında Azərbaycanın ev sahibliyi etməsi artıq təsdiq olundu.

Azərbaycan uzun əsrlərdən bəri İslam sivilizasiyasının əsas mərkəzlərindən biri olmuşdur. O, İslam dininin yayılmasında və eyni zamanda Müsəlman İntibahının bərqərar olmasında mühüm rol oynamışdır. Bütün bunlar Azərbaycan ərazisində ilk vaxtlardan İslam dininin maddi və qeyri-maddi irsinin formalaşmasına zəmin yaratmışdır.

Bakıda keçirilən idman tədbiri ilin ən mühüm idman müsabiqələrindən biri olmaqla yanaşı, eyni zamanda IV İslam Həmrəyliyi Oyunlarına konsepsiyası və əhatə dairəsinə görə bərabər çox az sayda oyun vardır.

Azərbaycan tolerantlıq mühitinin təşəkkül tapmasına, multikulturalizmin, mədəniyyətlərarası və sivilizasiyalararası dialoqun qurulmasına, islam dəyərlərinin dünyada təbliğinə böyük töhfələr vermişdir. Azərbaycanın İslam aləmində qazandığı nüfuz 2009-cu ildə Bakı və 2018-ci ildə Naxçıvan şəhərlərinin İslam mədəniyyətinin paytaxtı elan olunmasında öz ifadəsini tapmışdır. IV İslam Həmrəyliyi Oyunlarının 2017-ci ildə Bakı şəhərində

keçirilməsi ilə bağlı qərar isə ölkəmizin İslam həmrəylinin möhkəmləndirilməsi sahəsində növbəti əməli addımlar atması üçün əlverişli şərait yaradır.

Ənənəvi olaraq məlumdur ki, dünyada ən vacib oyun Olimpiyadadır. Ancaq, son zamanlar dünya idmanında trend halına düşmüş başqa qeyri-Olimpiya idman növləri də cəmləşdirilib. Həmin idman növləridir ki, dünyaya ən az Olimpiya oyunları qədər səs salır və idmansevərlər tərəfindən izlənilir. İslam Həmrəyliyi Oyunları buna ən böyük nümunədir.

2017-ci ilin Azərbaycan Respublikasında "İslam Həmrəyliyi İli" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamına əsasən Azərbaycan uzun əsrlərdən bəri İslam sivilizasiyasının əsas mərkəzlərindən biri olmuşdur. O, İslam dininin yayılmasında və eyni zamanda Müsəlman İntibahının bərqərar olmasında mühüm rol oynamışdır. Bütün bunlar Azərbaycan ərazisində ilk vaxtlardan İslam dininin maddi və qeyri-maddi irsinin formalaşmasına zəmin yaratmışdır.

Azərbaycan 2017-ci ilin 12-22 may tarixləri arasında belə bir mühüm idman tədbirinə ev sahibliyi etdi. Bu idman tədbiri Azərbaycanın inkişafı və dünyada tanınması üçün çox vacib və məsuliyyətli idi.

Azərbaycan Respublikasının birinci vitse-prezidenti Mehriban xanım Əliyeva bundan əvvəl ölkəmizdə keçirilən 2015-ci il birinci Avropa Oyunları və 2012-ci il Eurovision mahnı müsabiqəsində olduğu kimi IV İslam Həmrəyliyi Oyunlarında da təşkilat işlərində nəzarəti ələ almışdır. Mehriban xanımın zəngin təcrübəsi bu işi necə uğurla idarə edəcəyini açıq aydın göstərir və biz əminik ki, bundan sonra da ölkəmizdə bu cür beynəlxalq tədbirlər olarsa ölkəmiz, cənab prezidentimiz İlham Əliyev və xanımı, birinci vitse-prezident Mehriban xanım Əliyeva bu tədbirləri çox rahat və uğurla başa vuracaqlar.

Məlumdur ki, İslam Həmrəyliyi Oyunları ilk dəfə 2005-ci ildə Səudiyyə Ərəbistanda, 2013-cü ildə isə İndoneziyada keçirilmişdir. 2012-ci ilin oktyabr ayında İslam Həmrəyliyi Oyunlarının 18-ci iclası zamanı Azərbaycan Milli Olimpiya Komitəsi növbəti yəni 2017-ci ildə İslam Həmrəyliyi Oyunlarına ev sahibliyi üçün öz namizədliyini irəli sürmüş və səs çoxluğu ilə 2013-cü ildə İslam Həmyərliyi İdman Federasiyasının 8-ci Hesabat-seçki Baş Assambleyasında Azərbaycanın namizədliyi qəbul edilmişdir.

Azərbaycan Respublikasının qədim və zəngin tarixə malik olması özlüyündə böyük əminlik yaradaraq belə möhtəşəm beynəlxalq yarışlara ev sahibliyi etməsində mənəvi dəyərlərini sərgiləməsində üstünlük təşkil etmişdir. Eyni zamanda bunun üçün kifayət qədər təcrübəyə malik təşkilatçılıq imkanlarına sahibik.

Məlumdur ki 2015-ci ildə Azərbaycan I Avropa Oyunlarına ev sahibliyi etmişdi və 2017 İslam Həmrəyliyi Oyunlarında artıq təcrübəli səkildə ev sahibliyinə hazır idi və Azərbaycan 2015-ci ildə keçirilən I Avropa Oyunlarında necə peşəkar və məsuliyyətli formada oyunları başa vurdu. 2017-ci ildə keçirilən IV İslam Həmrəyliyi Oyunarında da eyni ilə I Avropa Oyunlarında olduğu proqrama oxşar şəkildə proqram hazırlandığını IV İslam Həmrəyliyi Oyunlarının

tədbirində Milli Olimpiya Komitəsinin (MOK) birinci vitse-prezidenti Çingiz Hüseynov öz çıxışında qeyd etmişdir.

IV İslam Həmrəyliyi Oyunlarında I Avropa Oyunlarından fərqli olaraq 2 idman növü əlavə edilmişdir. Bu oyunlar Ağırlıq qaldırma və Zorxana oyunlarıdır.

İslam Həmrəyliyi Oyunlarının 10 gün müddətində bütün İslam dünyasının və eyni zamanda digər bütün qeyri-islam dövlətlərinin nəzəri Azərbaycana tərəf yönəldildi. Bu ölkəmiz üçün möhtəşəm bir tarixi hadisə oldu. Bakı Olimpiya Stadionu öz möhtəşəmliyi ilə 2015-ci il birinci Avropa Oyunları yarışından sonra yenədə özünə məxsus aurasıyla izləyiciləri özünə heyran etdirdi. Təbiki bu stadionun aurası, görünüşü onun tikilməsində əməyi keçən hər kəsin öz işlərinə ciddi şəkildə yanaşması nəticəsinin bariz nümunəsidir. Bakı Olimpiya Stadionu 68 min tamaşaçını qəbul edəcək müasir səs sistemi ilə təchiz olunmuş 360 dərəcəli nəhəng səhnəyə malik olan meydançadır. Böyük səhnə hazırlanması ilə oyunlara olan marağı daha da artıraraq, onu yeni məzmunla zənginləşdirirdi. Səhnə tərtibatı yerli və xarici təşkilatçıların birgə əməyi nəticəsində ərsəyə gətirilmişdir. Bununla yanaşı digər hazırlıqlar da öz növbəsində qarşılıqlı plan əsasında hazırlandı. iştirakçıların geyimləri, rəqsləri, ifa olunacaq mövzular və rollarda kimlərin yer alacağı və digər hər bir şey ardıcıllıqla planlaşdırıldı. Tədbirin ərsəyə gəlməsində çox sayda könüllülərin və aktyorun iştirakı ilə müxtəlif səhnəciklər nümayiş etdirildi. Açılış və bağlanış mərasimləri üçün rənglərin seçilməsi ustalıq tələb edən amillərdəndir.

Azərbaycan Respublikası Prezidenti İlham Əliyev, Bakı-2017 İslam Həmrəyliyi Oyunlarının Təşkilat Komitəsinin sədri Mehriban xanım Əliyeva, ailə üzvləri, Səudiyyə Ərəbistanı Krallığının Şahzadəsi, İslam Həmrəyliyi İdman Federasiyasının prezidenti və Səudiyyə Ərəbistanı Milli Olimpiya Komitəsinin prezidenti Abdullah bin Mosaad bin Əbdüləziz Əl Səud açılış mərasimini digər tamaşaçılar ilə birgə seyr etmişdirlər.

İslam Həmrəyliyi oyunlarının açıq elan edilməsindən öncə aparıcının tamaşaçıları salamlaması və İslam dünyasının əlaqələrinin möhkəmləndirilməsi və bizi birləşdirən dəyərləri qeyd etmək münasibətilə dost olaraq bir araya gəldiyimizi bildirdi. Hər könüllünün əlində altı bucaqlı çərpələng formalı güzgülər işıqları üzərində əks etdirərərək sanki parlayan ulduz effekti verirdi. Səhnənin 2 tərəfində minarədən ucalan əzan səsləri islamı çox gözəl tərənnüm etmiş, gələn qonaqları və izləyənləri heyran etmişdir. Daha sonra kiçik uşaqların əllərində altı bucaqlı rəngarəng çərpələnglərin üzərində ondan geriyə sayılan rəqəmlərin ardıcıllığının bitməsilə açılışa başlanıldı. Səhnənin tərtibatında İslam incəsənətinin bənzərsiz eyni zamanda da qüsursuz görünüşdə olması üçün seçilən həndəsi naxışlara və ənənəvi Azərbaycan xalçalarının ikonoqrafiyasına üstünlük verilmişdir.

Səhnənin mərkəzində diametri 8 metr olan böyük su sinisi və hündürlüyü 25 metrə çatan “Həyat ağacı” yerləşdirilmişdi. Döymə üsulu ilə hazırlanmış su sinisi mərkəzdə yerləşdirilmişdi.

Açılış və bağlanış mərasimlərində Azərbaycanın Üzeyir Hacıbəyov, Qara Qarayev kimi dahi bəstəkarlarının əsərləri səhnələrin fonunda səsləndirilmişdir. Səhnələrdə milli ornament və naxışlardan, o cümlədən butadan geniş formada istifadə olunmuşdur. Bu da ölkəmizin milli ənənələrinin xarici qonaqlara tanıdılmasında əhəmiyyətli rol oynamışdır.

Açılış mərasiminin irəlilədiyi dəqiqələrdə sülh və ümid haqqında universal hekayə təqdim olundu və burada İslam sivilizasiyasının böyük töhfələri qeyd olunmuşdur. Azərbaycanın əsrlər boyu formalaşmış mədəniyyətindən qaynaqlanan hekayətdə maraqlı bilik və ixtira səyahətinə çıxmış kiçik qız və onun çərpələngindən bəhs edilmişdir. Açılış mərasimində Mina adlı kiçik qız və babası ilə birlikdə oynaması da öz əksini tapmışdır. Rolların ifasından məlum olunduğu kimi kiçik qıza babası gələcəyimizə aparan yolu dəyişmək üçün əvvəlcə öz keçmişimizi qavramasının vacibliyini izah edir və macəraya başlayır. Yüzlərlə iştiraçının bu macərada rəngarəngliyi hər kəsi heyran edir. Burada olan tarixi ardıcıllıq öz növbəsində Azərbaycanın tarixində və islam mədəniyyətinin zaman-zaman hansı mərhələlərdən keçməsi nümayiş olunur. Elm və mədəniyyətin formalaşması kitablara olan maraq, ixtiralar və sair hər nüansa toxunulmuşdur. Bu nümayiş olunanların hamısından məlum olurki, Azərbaycan hər dövrdə onun zamanına uyğunlaşmağı bacarmışdır.

İslam Həmrəyliyi Oyunlarının açılışından heçdə qalmıyan yarışın bağlanış mərasimində də maraqlı görüntülər sərgiləndi. Müxtəlif səhnəciklər yayımlandı. Rəngarənglik yenədə öz sözünü deyirdi. Yüzlərlə könüllü gənclər həvəslə öz rollarını sərgilədilər. IV İslam Həmrəyliyi Oyunlarının bağlanış mərasimi direktor və icraçı prodüser Katrin Uqvunun rəhbərlik etdiyi dünya şöhrətli "Betty Productions Ltd" şirkəti, eləcə də beynəlxalq bədii, səhnə və texniki heyətlər tərəfindən hazırlanmışdır. Ölkəmizin əsrarəngiz təbiətindən qaynaqlanaraq, bağlanış mərasimi Azərbaycanın zəngin irsi göz önünə, izləyicilərə təqdim edildi. Səhnə elementlərində ən çox İslam aləminə xas olan incəsənətin bənzərsiz naxışlarına və ənənəvi Azərbaycan xalçalarının bəzəklərinə bir daha üstünlük verildi. Səhnənin mərkəzində mayın 12-də açılış mərasimində istifadə olunmuş diametri 8 metr olan döymə üsulu ilə hazırlanmış və hamarlanmış böyük su sinisi və 25 metrlik həyat ağacı yerləşdirildi. Bağlanış mərasimi 1500-ə yaxın Azərbaycan könüllüsü tərəfindən canlandırılması nəzərdə tutulmuşdu. Mərasimdə səsləndirilən musiqi 10-dan çox Azərbaycan bəstəkarının klassik və müasir əsərləri səsləndirildi, 100-dən çox dünya şöhrətli musiqiçi, o cümlədən Kral Filarmonik Orkestrı tərəfindən ifa olunmuşdur. Mayın 20-də atletika yarışları başa çatdıqdan sonra səhnə cəmi 36 saat ərzində hazırlanıb, tamaşaçılara təqdim edilmişdi. 31 müxtəlif ölkədən gəlmiş 5000-dən artıq insan, o cümlədən səhnə mütəxəssisləri, texniki heyət və aktyorlar qrupu "Bakı 2017"- nin mərasimlərini reallığa çevirdilər. "Gilavar" adlandırılan bağlanış mərasimi üçün ilk öncə səhnəyə quraşdırılan ekrandakı video çarxlardan məlum olduğu kimi Bakının İçərişəhərində gənc qadın qızılı tozu üfürərək giləvar küləyinin əsməsini nümayiş etdirdi. Qızılı tozun gilavar küləyi ilə əsməsi onu qonaqpərvərliyi və xeyirxahlığı ilə məşhur olan

ölkəyə hörmət əlaməti kimi hər qapını açaraq, bütün Azərbaycana yayılması təsvir olundu. Sonra isə 10-dan geriyə sayılaraq, "Bakı 2017" İslam Həmrəyliyi Oyunlarının bağlanış mərasiminə start verildi. Azərbaycan Respublikasının birinci xanımı, "Bakı-2017" Təşkilat Komitəsinin sədri Mehriban Əliyevanın, İslam Həmrəyliyi İdman Federasiyasının baş katibi Faisal Abdulaziz Al-Nasserin çıxışları dinlənildi. Sonra 5-ci İslam Həmrəyliyi oyunları 2021-ci ildə Türkiyədə keçirilməsi elan olundu və rəmzi xarakter daşıyan İslam Həmrəyliyi İdman Federasiyasının bayrağını Türkiyə Respublikasının gənclər və idman nazirinin müavini, "İstanbul-2021" İslam Həmrəyliyi Oyunlarının nümayəndəsi Kamran Özdənə təqdim etdi. Türkiyənin dövlət himni "İstiqlal marşı" səsləndirildi və Azərbaycan bayrağının yanında qardaş ölkə Türkiyənin bayrağı qaldırıldı.

IV İslam Həmrəyliyi Oyunlarında 8000 oyun könüllüləri, 3600 mərasim könüllüləri fəal şəkildə iştirak etmişdir. 1700 idman tədbirində 269 medal dəsti öz sahiblərini tapmış, qaliblərə təqdim edilmişdir. Ümumilikdə? IV İslam Həmrəyliyi Oyunlarında təşkilatçılar aylarla 500.000-dən artıq iş saatında öz əməklərini sərf etmişlər və bu da ölkəmizin oyunlara necə məsuliyyətli yanaşdığının daha bir sübutu olmuşdur.İslam Həmrəyliyi Oyunları idman tərtibatlı olsa da bu heç də yalnız idmanla bağlı tədbir deyil, eyni zamanda islam ölkələrinin bütün dünyada nümayişi oldu. İslam Həmrəyliyi Oyunları idman tədbiri ilə yanaşı həm də sosial bir tədbir hesab olunur.

**Ədəbiyyat:**

1. Ələkbərov A. Mehriban. Bakı: Azərnəşr, 2014
2. Heydər Əliyev Fondu. Bakı: "Azərbaycan" nəşriyyatı, 2004
3. Газета «БАКУ» // №4 (60) июль-август, 2017
4. Baku 2015 European Games Operation Committee (BEGOC). Bakı: "CBS Polygraphic production" nəşriyyatı. 2014
5. Sydney Law School Legal Studies Research, Penguin Random House nəşriyyatı. October 2008

**Айтадж Хыдырова**

**Игры исламской солидарности в Азербайджане**

**Резюме**

Указом президента Азербайджана Ильхама Алиева от 18 сентября 2015 года был создан Организационный комитет по проведению IV Игр исламской солидарности в Баку. Председателем Организационного комитета была назначена член Исполнительного комитета Национального олимпийского комитета Азербайджанской Республики Мехрибан Алиева. 12 мая 2016 года был представлен новый логотип и бренд Игр. Логотип, который создали азербайджанские дизайнеры, отражает историю, наследие и культуру исламских государств. Основной же темой бренда мероприятия является «современное ковроткачество сквозь призму присущих большинству

исламских государств богатых культурных традиций». Сами элементы бренда символизируют элементы азербайджанского ковроткачества и наскальную живопись Гобустана.

**Ключевые слова**: Баку 2017, Игры исламской солидарности, события, международные игры, спорт.

**Aytaj Khidirova**

## Islamic Solidarity Games in Azerbaijan

## Summary

Azerbaijan hosted a very important sport event in 12-22 May 2017. This sport event was very important and responsible for development and recognition of Azerbaijan. This was a wonderful historical event for our country. Sport event that took place in Baku, it was one of the most important sport competition of the year, also there were very few games in the 4th Islamic Solidarity Games that were similar to the concept and coverage.

**Keywords:** Baku 2017, Islamic Solidarity Games, event, international games, sport

**Məqalənin redaksiyaya daxil olma tarixi: 18.06.2018**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 27.06.2018**
**Məqalənin çapa qəbul olunma tarixi: 03.07. 2018**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı: sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Mehriban Novruzova**
**ADMİU-nun Elmi Şurasının 06 iyul 2018-ci il, 09 saylı qərarı ilə çap olunur**